**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA QİDA İSTEHSALININ MODERNLƏŞMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Novruz Əmir oğlu Rəhimov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Şəfa Tiflis oğlu Əliyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Elnur Qara oğlu Allahverdiyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Vüsalə Musa qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ________ iqtisad elmləri doktoru, professor
**Elşən Əli oğlu İbrahimov**

# TƏDQİQAT İŞİNİN SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal çağırışlar hər bir ölkənin milli iqtisadiyyatında özünəməxsus struktur dəyişikliklərinin həyata keçirilməsini obyektiv zərurətə çevirir. Bu təmayül xüsusilə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı üçün həyatı əhəmiyyət daşıyan bir proses kimi çıxış edir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə, xüsusilə də neftdən asılı olan ölkələrdə iqtisadiyyatın şaxələndirilməsi prosesi ölkənin iqtisadi təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Nəzərə almaq lazımdır ki, ölkənin iqtisadi təhlükəsizliyinə təhdidlərin yaranması daxili və xarici amillərdən formalaşır. İdxaldan asılılıq mühüm xarici risk amili kimi çıxış etsə də, əslində bu prosesin formalaşması daxili disproporsiyalardan da qaynaqlana bilər. Belə ki, xüsusilə neftdən asılı ölkələrdə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməməsi kimi proseslər həmin sahədə iqtisadi və struktur problemlərin yaranmasına səbəb olur. Qeyri-neft sektoru kifayət qədər geniş spektrli bir sahədir və bu sahənin strukturunda qida sənayesi mühüm rol oynayır.

Qida sənayesinin inkişaf etdirilməsi bütün əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsini təmin edən tədbirlərin səmərəli nəticəsi kimi çıxış edir, həm idxaldan asılılığın aradan qaldırılmasına, həm də ixracın həcminin və çeşidinin artırılmasına əlverişli şərait yaradılması baxımından mühüm əhəmiyyətə malikdir. Odur ki, qeyri-neft sektorunun mühüm tərkib hissəsi kimi qida sənayesinin inkişaf etdirilməsi hər bir ölkənin milli iqtisadiyyatında mühüm strateji əhəmiyyətə malikdir. Qida sənayesinin inkişafının sürətləndirilməsi ilə bağlı prosesləri reallaşdırarkən adı çəkilən sahənin modernləşdirilməsinə diqqət yetirmək vacibdir. Bu, onunla bağlıdır ki, qida sənayesinin modernləşdirilməsi, məhz keçmiş ənənəvi texnologiyalardan uzaqlaşılmasını özündə əks etdirir. Qida sənayesinin modernləşdirilməsinin zəruriliyi, məhz məhsul vahidinə düşən xərclərin (və ya məhsulun maya dəyərinin) aşağı salınmasını, əmək məhsuldarlığının həcminin artırılmasını və eləcə də istehsal edilən qida məhsullarının rəqabət qabiliyyətinin, o cümlədən keyfiyyətinin yüksəldilməsini özündə ehtiva edir.

Bu baxımdan, müstəqilliyinin 34-cü ilini yaşayan Respublikamızda qlobal çağırışlara adekvat reaksiya göstərilməsi baxımından kifayət qədər çoxsaylı tədbirlər və dövlət proqramları qəbul edilmişdir. Bu proqramlar regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, eyni zamanda regionda yeni qida sənayesi müəssisələrinin yaradılması və eləcə də infrastruktur sisteminin inkişaf etdirilməsi ilə nəticələnmişdir. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd edilir ki, – iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələndirilməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaq sütunlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir.[1] Milli prioritetlərdə qeyd edildiyi kimi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi davamlı iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır. Bu baxımdan qida sənayesinin modernləşdirilməsi prosesin ən mühüm tərkib hissəsini təşkil etməlidir.

Qida istehsalının modernləşdirilməsi istiqamətində Dövlət Proqramları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qida sənayesinin modernləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyan bir sıra hədəflər müəyyən edilmişdir. Adıçəkilən strategiyada qeyd edilir ki, "aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaqdır. Dövlətin stimullaşdırıcı dəstəyi ilə sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturların yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici

---

[1] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2021.

bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022–2026-cı illərdə kənd təsərrüfatında orta illik artım 4% olacaqdır. Nəqliyyat sektorunda orta illik artım tempi 5%-i üstələyəcək. Ölkənin tranzit yükləmələrindən əldə etdiyi gəlir 2019-cu ildə 227 milyon manatdan 2 dəfədək artaraq 450 milyon manata çatacaqdır. Qeyri-neft sənayesi isə orta hesabla illik 8,3% artacaq. Sənaye zonalarının qeyri-neft sənayesində payı 15%, qeyri-neft sənayesi ixracında payı isə 25 % olacaqdır.[2]

Qida istehsalının modernləşdirilməsi həm ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin qorunub saxlanılması baxımından, dəyişən bazar və qlobal mühitə uyğunlaşdırılması istiqamətində tədbirlərin davamlı şəbəkəsi kimi qiymətləndirilməlidir. Qida istehsalının modernləşdirilməsinin zəruriliyi həm ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, rəqabət qabiliyyətinin yüksəldilməsi dəyişən şəraitə müvafiq adaptasiya proseslərinin reallaşdırılması və ən başlıcası qida sənayesi müəssisələrinə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiqi və onun səmərəliliyin artırılması baxımından da mühüm əhəmiyyətə malikdir.

Qida istehsalının modernləşdirilməsi ilə bağlı elmi tədqiqatların həyata keçirilməsi, məhz bu çağırışlara davamlı reaksiya göstərilməsi baxımından əhəmiyyətlidir. Odur ki, adı çəkilən amillər dissertasiya tədqiqatını obyektiv zərurətə çevirmişdir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, adı çəkilən problemlərin həlli ilə bağlı istər nəzəri-metodoloji və istərsə də praktiki aspektlər ölkənin iqtisadçı alimlərinin, eləcə də xarici ölkənin müxtəlif nümayəndələrinin daim diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə tədqiqat aparmış alimlər içərisində Z.Ə.Səmədzadə, Ə.X. Nuriyev, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, A.E.Quliyeva, A.B.Abbasov, V.Ə.Qasımlı, V.C.Axundov, T.H.Hüseynov, V.H.Abbasov, E.Ə.İbrahimov, A.F.Abbasov, F.V.Quliyev, E.B.Məmmədova, S.İ.Vəliyeva,

[2] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası // Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2022.

N.C.Qafarov, M.M.Hüseynov və başqalarını qeyd etmək olar. MDB ölkələrinin iqtisadçılarından E.V.Moisev, İ.Q.Frolov, S.U.Qlazev, V.N.Flomev, qərb iqtisadçılardan, Q.Emerson, İ.Ansoff, D.Mak-Klelland və başqaları bu sahədə dərin məzmunlu tədqiqatlar aparmışlar. Lakin aparılan tədqiqatların əksəriyyəti qida sənayesinin sektorunun bu və ya digər yarımbölmələrini təşkil etmiş, qida istehsalının modernləşdirilməsinin Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri nəzərə alınmaqla kompleks şəkildə kifayət qədər diqqət yetirilməmişdir. Məhz bu boşluğu aradan qaldırmaq istiqamətində tərəfimizdən aparılan tədqiqatlar ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yeni elmi çağırışların bir hissəsi kimi dəyərləndirilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının milli iqtisadiyyatının qida sənayesi sektoru təşkil edir. Tədqiqatın predmetini qida istehsalının modernləşməsi prosesində formalaşan iqtisadi və təşkilati münasibətlər, inkişaf meylləri və modernləşmə mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri**. Tədqiqatın məqsədi qida istehsalının modernləşdirilməsinin elmi-nəzəri əsaslarını araşdırmaqdan, qida istehsalının modernləşdirilməsinin mövcud müasir vəziyyətini təhlil etməkdən, qida istehsalının modernləşdirilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış praktik əhəmiyyətli təkliflər işləyib hazırlamaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- modernləşmənin nəzəri əsasları, səciyyəvi xüsusiyyətləri və iqtisadi inkişafın sürətləndirilməsində rolunun araşdırılması;
- qida istehsalının modernləşməsinin mahiyyəti, səciyyəvi xüsusiyyətləri və ona təsir edən amillərin müəyyənləşdirilməsi;
- qida istehsalının modernləşdirilməsi ilə bağlı beynəlxalq təcrübə və onun ölkəmizdə tətbiqi imkanları tədqiq edilməsi;
- qida sənayesinin modernləşdirilməsinin mövcud vəziyyətinin təhlil edilməsi;
- Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalının modernləşdirilməsinin qida sənayesinin inkişafında rolunun müəyyənləşdirilməsi;

- qida istehsalının modernləşməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- qida məhsulları istehsalında innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətlərinin konkretləşdirilməsi;
- qida istehsalının modernləşdirilməsində yaşıl texnologiyaların stimullaşdırılmasının rolunun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları**. Tədqiqatın metodlarına iqtisadi, statistik təhlil, sistemli yanaşma metodu, məntiq, ümumiləşdirmə, müqayisəli təhlil metodu və s. aiddir

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Müdafiəyə çıxarılan əsas müddəalara aşağıdakılar şamil edilir:

- iqtisadiyyatın modernləşdirilməsinin qlobal məkanda güclənən sosial-iqtisadi qeyri-bərabərliyinin azaldılmasına təsirinin müəyyənləşdirilməsinə ehtiyac vardır;
- qloballaşma şəraitində iqtisadiyyatın modernləşdirilməsinin dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə təsir imkanlarının müəyyənləşdirilməsi günün tələbidir;
- qida istehsalının modernləşdirilməsinə kənd təsərrüfatı xammalı istehsalının modernləşdirilməsinin təsirinin əsaslandırılması diqqət mərkəzində saxlanılmalıdır;
- regionlarda kənd təsərrüfatı və qida məhsulları istehsalının modernləşdirilməsinin urbanizasiyanın zərərli təsirlərinin aradan qaldırılmasında rolunun əsaslandırılmasına ehtiyac duyulur;
- qida məhsulları istehsalının modernləşdirilməsinin ölkənin ərzaq təminatının yaxşılaşdırılmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu ön plana çəkilməlidir;
- qida istehsalının modernləşdirilməsində yaşıl texnologiyalardan istifadənin perspektivlərinin müəyyənləşdirilməsi vacibdir;
- qida istehsalının modernləşdirilməsində innovativ texnologiyaların prioritet sahələrinin və onların perspektivlərinin müəyyənləşdirilməsinə ehtiyac vardır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- qida sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsində qida sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsində texnoloji modernləşdirilmənin rolu müəyyənləşdirilmişdir;

- qida istehsalının modernləşdirilməsi ilə bağlı ölkəmizdə mövcud problemlərin aşkara çıxarılması və onların həlli yollarının müəyyənləşdirilmişdir;
- regionlarda qida istehsalının modernləşdirilməsinə təsir edən amillər aşkar edilmişdir;
- qida istehsalının modernləşdirilməsinin səciyyəvi cəhətləri müəyyənləşdirilmiş və bu xüsusiyyətlərin istehsalın iqtisadi səmərəliliyinə təsiri imkanları konkretləşdirilmişdir;
- qida istehsalının modernləşdirilməsinin idxaldan asılılığın azaldılmasında rolu əsaslandırılmışdır;
- qida istehsalının modernləşdirilməsinin əhalinin ərzaq bazarından səmərəli istifadə imkanlarının və qida məhsulları bazarına əlçatanlığın təmin edilməsi prioritetləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti qida istehsalının modernləşməsi ilə bağlı fərqli elmi nəzəri yanaşmaları ümumiləşdirərək Azərbaycan Respublikasının təbii və ixtisaslaşma xüsusiyyətləri nəzərə alınmaqla müvafiq prioritet istiqamətlərin müəyyənləşdirilməsi üçün nəzəri baza hazırlamaqdan ibarətdir. Eyni zamanda qida istehsalının modernləşdirilməsinin innovativ istiqamətləri də müəyyənləşdirilmiş və bu istiqamətlərin qida məhsulları istehsalının rəqabətqabiliyyətinin yüksəldilməsinə təsiri müəyyənləşdirilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti Azərbayan Respublikasının qida sənayesi sektorunda modernləşdirmənin uğurla həyata keçirilməsi üçün təkliflər irəli sürmək, qida istehsalının modernləşdirilməsi mexanizmlərinin tətbiqi ilə bağlı əməli yanaşmalar hazırlamaqdan ibarətdir. Bu nəticələr qida istehsalının modernləşdirilməsi ilə bağlı konkret proqramların işlənib hazırlanması və həyata keçirilməsi, iqtisadyönümlü universitetlərdə ixtisaslı kadrların hazırlanmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi:** Dissertasiyanın əsas nəzəri müddəaları, praktik nəticələr və tövsiyələri beynəlxalq və ümumrespublika səviyyəsində keçirilmiş konfranslarda məruzə olunmuş, mövzu üzrə cəmi 8 məqalə və 4 tezis (ondan 2 məqalə 1 tezis xaricdə) çap edilmişdir. Belə ki, tədqiqatın əsas müddəaları “Qida məhsullarının istehsalının stimullaşdırılmasının bəzi məsələləri” (Bakı, 2023), “Qida

məhsulları istehsalının ekoloji, iqtisadi problemləri" (Bakı, 2024), "Müasir şəraitdə qida sənayesinin davamlı inkişafının təmin edilməsinin prioritet istiqamətləri" (Bakı, 2024), "Роль логистических инноваций в стимулировании производителей продуктов питания" (Гомель, 2024) adlı tezislərdə öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlərdən "Qida məhsullarının istehsalında yaşıl texnologiyaların tətbiqinin stimullaşdırılması" (Bakı, 2024), "Qida məhsullarının istehsalı prosesində qlobal çağırışların rolu" (Bakı, 2024), "Qida məhsulları istehsalçılarının stimullaşdırılmasının iqtisadi problemləri" (Bakı, 2024), "The Role of Global Trends in Stimulating Food Production" (Galati, 2024), "Qloballaşma şəraitində qida sənayesinin modernləşdirilməsinin ərzaq təhlükəsizliyi baxımından qiymətləndirilməsi" (Bakı, 2025), "Qida məhsulları istehsalının modernləşdirilməsi və iqtisadi şaxələndirmə məsələləri" (Bakı, 2025), "Мировой опыт модернизации производства продуктов питания" (Москва, 2025), "Qida sənayesinin modernləşdirilməsində xarici investisiyaların rolu" (Bakı, 2026) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 12704 işarə, birinci fəsil 85561 işarə, ikinci fəsil 48732 işarə, üçüncü fəsil 65997 işarə, nəticə 7632 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı 14624 işarədən ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi cədvəllər, şəkillər, və ədəbiyyat siyahısı istisna edilməklə 220626 işarə təşkil edir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Girişində** mövzunun aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi əks olunmuş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, əsas müddəalar və elmi yeniliklər verilmişdir.

Dissertasiya işinin **"Qida istehsalının modernləşməsinin elmi-nəzəri məsələləri"** adlanan I fəslində modernləşmənin mahiyyəti,

səciyyəvi xüsusiyyətləri və iqtisadi inkişafın sürətləndirilməsində rolu, qida istehsalının modernləşməsinin mahiyyəti, səciyyəvi xüsusiyyətləri və ona təsir edən amillər, qida istehsalının modernləşdirilməsi ilə bağlı beynəlxalq təcrübə və onun ölkəmizdə tətbiqi imkanları tədqiq edilmişdir.

Bu fəsildə qeyd edilir ki, modernləşmə, cəmiyyətin bütün sahələrinin dəyişən reallıqlara, müasir tələblərə və standartlara uyğunlaşdırılmasını özündə əks etdirən yeniləşmə və təkmilləşmə prosesidir. İstehsalın, texnologiyaların, bütövlükdə sistemin yeniləşməsi, mahiyyət etibarilə istehsal olunan məhsulun və göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsini, məhsul istehsalında və xidmətlərin göstərilməsində müasir texnologiyalardan istifadəni özündə əks edir. Bu baxımdan modernləşmə nəticə deyil, daha çox iqtisadi və sosial səmərəliliyin yüksəldilməsinə yönəldilmiş proses kimi də səciyyələnə bilər. Köhnə texnologiyalardan yeni texnologiyalara keçid, ilk növbədə məhsuldarlığın yüksəldilməsinə gətirib çıxarmaqla yanaşı, məhsulun keyfiyyətinin artırılmasına, onun rəqabətə davamlılığının yüksəldilməsinə də əlverişli şərait yaradır. Modernləşmə prosesini yalnız iqtisadi aspektdən qiymətləndirmək doğru olmazdı. Modernləşmə prosesi istər fəlsəfi, istər sosial, istərsə də təbiətşünaslıq nöqteyi-nəzərdən öz aktuallığını qoruyub saxlamışdır.

Modernləşmənin kifayət qədər çox saylı növ və formaları vardır. Tədqiqatın nəticələrinə əsasən modernləşmə prosesinin səmərəliliyinin yüksəldilməsi üçün modernləşmənin bütün növlərinin paralel şəkildə tətbiq edilməsinə ehtiyacı vardır. Bu ehtiyac səmərəli və optimal şəkildə qarşılandığı hallarda cəmiyyətdə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə nail olmaq mümkündür.

Qida sənayesinin mühüm strateji əhəmiyyəti eyni zamanda ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Ölkənin ərzaq təhlükəsizliyi baxımından problemə yanaşdıqca hesab etmək olar ki, qida sənayesi, ərzaq kompleksinin mühüm tərkib hissəsi kimi ərzaq məhsullarına olan tələbatın ödənilməsində önəmli rol oynayır. Bu baxımdan, ərzaq məhsullarının strateji ehtiyatlarının yaradılması və dövlətin ərzaq fondlarının formalaşdırılması, qida sənayesinin davamlı inkişafının təmin edilməsindən, eləcə də kənd təsərrüfatı ilə

emal sənayesi arasında inteqrasiya münasibətlərinin uğurla formalaşdırılmasından bilavasitə asılıdır.

Qida sənayesinin modernləşdirilməsi dedikdə, qida sənayesinin yenidən qurulması, onun dəyişən şəraitə uyğunlaşdırılması, qida sənayesində köhnəlmiş texnologiyalardan istifadədən imtina edilməsi, yeni texnologiyalardan istifadənin həyata keçirilməsi başa düşülür. Qida sənayesinin modernləşdirilməsinin də əsas məqsəd, iqtisadi səmərəliliyin artırılmasına nail olmaqdan, məhsulun maya dəyərinin aşağı salınmasını təmin etməkdən və eləcə də qida sənayesinin rəqabət qabiliyyətini yüksəltməkdən ibarətdir. Bu baxımdan qida istehsalının modernləşdirilməsinin obyektiv zəruriliyini aşağıdakı kimi təsnif etmək olar:

– Qida istehsalının modernləşdirilməsi ona görə vacibdir ki, hazırda, xüsusilə də keçmiş Sovetlər Birliyinə daxil olan ölkələrdə, ölkənin ərzaq bazarında xarici qida istehsalçılarının bazardakı payı və rəqabət mövqeyi yüksəkdir;

– Qida istehsalının modernləşdirilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, xaricdən idxalın azalması hesabına valyuta vəsaitlərinin ölkədən çıxışının məhdudlaşdırılması ilə sıx bağlıdır;

– Qida istehsalının modernləşdirilməsi ilk növbədə köhnə texnologiyaların əvəzlənməsi üçün ən mühüm vasitələrdən biridir. Köhnə texnologiyalar istehsalı iqtisadi cəhətdən səmərəli həyata keçirməyə imkan vermir və məhsul istehsalı daha çox istehsal xərcləri hesabına başa gəlir;

– Qida istehsalının modernləşdirilməsinin obyektiv zəruriliyini şərtləndirən amillərdən biri də qida istehsalının enerji tutumunun aşağı salınması zərurətidir. Qida istehsalı modernləşdirilmədiyi təqdirdə, yüksək enerji tutumlu istehsal həyata keçiriləcək və bu isə ekoloji tarazlığın pozulmasına, həmçinin ətraf mühitin çirklənməsinə səbəb olacaqdır. Qida istehsalının modernləşdirilməsi ilk növbədə yaşıl texnologiyalardan istifadəni ön plana çəkir;

– Qida istehsalının modernləşdirilməsi məhsul istehsalına çəkilən sabit və dəyişən xərclərin xüsusi çəkisinin azaldılmasına özündə ehtiva edir. Bu isə istehsalın yenidən qurulması, yeni texnoloji axın xətlərinin quraşdırılmasını ön plana çəkir;

– Qida istehsalının modernləşdirilməsi nəticəsində kənd təsərrüfatı xammalını qısa zaman kəsiyində hazır məhsula çevirmək mümkündür ki, bu da ölkənin tədiyyə balansında müsbət dəyişikliklərə səbəb ola bilər. Təbii ki, dünya bazarına kənd təsərrüfatı məhsulunu xammal əsasları ilə ixrac etmək, hazır qida məhsulu şəklində ixrac etmək müqayisədə daha əlverişsiz səciyyə daşıyır;

– Qida istehsalının modernləşdirilməsi, xüsusilə də regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün əlverişli şərait yarada bilər. Məlum olduğu kimi, Respublikamızın timsalında qida sənayesinin maddi əsasını təşkil edən kənd təsərrüfatı demək olar ki, ölkənin bütün regionlarına səpələnmişdir. Bu baxımdan, regionlarda qida sənayesinin modernləşdirilməsi, yeni emal müəssisələrinin yaradılması, keçmiş emal müəssisələrinin restrukturizasiya edilməsi prosesi, əhalinin məşğulluğunun təmin edilməsinə və urbanizasiya prosesinin qarşısının alınmasına da əlverişli şərait yaratmaq iqtidarındadır.

Qida istehsalının modernləşdirilməsinin səciyyəvi cəhətləri ilk növbədə məhsul istehsalının səmərəliliyi ilə bağlıdır. Qida istehsalının modernləşdirilməsinin səmərəliliyi əsas etibarilə iqtisadi, sosial, ekoloji və institusional aspektlərdə qiymətləndirilir. Bu baxımdan qida istehsalının modernləşdirilməsinin səmərəliliyi şəkil 1-də öz əksini tapmışdır:

Şəkildən göründüyü kimi, qida istehsalının modernləşdirilməsinin səmərəliliyinin dörd aspektdə - iqtisadi, sosial, ekoloji və institusional aspektlərdə dəyərləndirilməsi məqsədəuyğun sayılır. Qida istehsalının modernləşdirilməsinin səmərəliliyində ilk növbədə iqtisadi amillər ön plana çıxır. Belə ki, məhz iqtisadi səmərəliliyin yüksəldilməsi üçün modernləşdirmə obyektiv zərurət kimi meydana çıxır. Bu zaman məhsul maya dəyərinin aşağı salınması, enerji xərclərinə qənaət edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və digər bu kimi amillər iqtisadi səmərəliliyin səciyyəvi cəhətlərindən biridir. İqtisadi səmərəliliyi üçün, eləcə də institusional səmərəlilik üçün qarşılıqlı aspektdən, qarşılıqlı maraq doğuran məsələlərdən biri istehsal edilən qida məhsullarının rəqabətədavamlılığının, rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlıdır.




**Şəkil 1. Qida istehsalının modernləşdirilməsinin səmərəliliyi**

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*

Qloballaşma prosesi dərinləşdikcə qida istehsalının modelləşdirilməsinə kifayət qədər çox sayda amillər təsir göstərir. Bu amillər həm qida istehsalının modelləşdirilməsində əhəmiyyətli rol oynayır, həm də istehsalın rəqabət qabiliyyətinə təsirsiz ötüşmür. Bu baxımdan, qida istehsalının modelləşdirilməsinə təsir edən amilləri şəkil 2-də fərqləndirmək mümkündür:




**Şəkil 2. Qida sənayesinin modernləşməsinə təsir edən amillər**

*Mənbə: müəllif tərəfindən tərtib edilib.*

Şəkildən göründüyü kimi, qida istehsalının modernləşdirilməsinin həm spesifik xüsusiyyətləri, həm də modernləşmə prosesinə təsir edən amillər mahiyyət etibarilə məhsulun iqtisadi səmərəliliyinin artırılmasına və məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli rol oynayır.

ABŞ-da qida sənayesi sektorunun əhəmiyyətli hissəsini iri klasterlər təşkil edir və bu klasterlər ABŞ-da dövlət büdcəsindən ayrılan vəsaitin əhəmiyyətli hissəsinə sahib olurlar. Təhlil göstərir ki, bu təmayül təkcə ABŞ-da deyil, eyni zamanda Anqlo-Sakson modelini seçmiş ölkələrin təcrübəsində də özünü büruzə verir. Belə ki, ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya və Yeni Zelandiya kimi ölkələr Anqlo-Sakson modelli ölkələr olmaqla, burada da yuxarıda sadalanan

modelin səciyyəvi xüsusiyyətləri tətbiq olunur. Qida məhsullarının istehsalçılarının yardım göstərilməsi ilə bağlı proseslər ABŞ-da kifayət qədər geniş və çoxşaxəli xarakter daşıyır.

Dissertasiyanın II fəsli **"Azərbaycanda qida sənayesinin modernləşdirilməsinin mövcud vəziyyəti və inkişaf meyilləri"** adlanır. Bu fəsildə qida sənayesinin modernləşdirilməsinin mövcud vəziyyəti, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalının modernləşdirilməsinin qida sənayesinin inkişafında rolu təhlil edilir. Bu fəsildə qeyd edilir ki, Azərbaycanda qida məhsullarının istehsalı, sektorun istehsalının artırılması və bu sahədə fəaliyyət göstərən müəssisələrin modernləşdirilməsi qeyri-neft sektorunun inkişafında önəmli rol oynayır. Bütün bunları nəzərə alaraq, dövlət tərəfindən qida sənayesinin modernləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Bu tədbirlər, əsas etibarilə dövlətin hüquqi, qanunvericilik aktları, o cümlədən dövlət proqramları və strateji yol xəritələri vasitəsilə reallaşdırılır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, *2025-ci ildən sonra Azərbaycanın şaxələndirilmiş və dayanıqlı iqtisadiyyatda ümumi əlavə dəyərin dörddə üçündən çoxu qeyri-neft sektorunda yaranacaqdır. Növbəti illərdə rəqabətədavamlı əmək xərcləri Azərbaycan iqtisadiyyatı üçün qısamüddətli katalizator rolunu oynayacaqdır. Qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2005-ci ilə qədər və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın vacib hərəkətverici qüvvəsi olacaqdır. Bu səbəbdən gələcəkdə sənaye və xidmət sektoruna birbaşa xarici investisiyalar daha geniş miqyasda cəlb edilməsi nəzərdə tutulur. 2025-ci ildən sonrakı dövrdə ixrac təkcə mal deyil, həm də xidmət çeşidinin artması hesabına şaxələnəcək və daha da böyüyəcəkdir. İxracın artan məhsul və xidmət sayına əsaslanması neft və qaz qiymətlərindəki dəyişikliklərdən asılılığı azaldaraq, xarici valyuta gəlirlərini sabitləşdirəcəkdir.*[3]

İstehsalçı müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatına

[3] Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi // Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmişdir. – Bakı, 2016. – 112 s.

gəldikdə isə qeyd etmək lazımdır ki, 2020-ci illə müqayisədə, 2021–2024-cü ildə sənaye müəssisələrinin anbar ehtiyatları 819,3 milyon manat təşkil etmişdir ki, bu da 2020-ci illə müqayisədə 31,9 % çoxdur. Emal sənayesində anbar ehtiyatlarının həcmi isə müqayisə olunan dövrdə 34,2 % artaraq 71,9 milyon manata, qida məhsulları istehsal edən müəssisələrin anbarlardakı məhsul ehtiyatının həcmi isə 79,4 % artaraq 96,7 milyon manata, içki istehsal edən müəssisələrdə mövcud anbar ehtiyatlarının həcmi isə müqayisə olunan dövrdə 18,3% artaraq, 36,2 milyon manata çatmışdır.

Qida məhsullarının anbar ehtiyatlarının istehsal edilən məhsulun həcmində xüsusi çəkisi 2020-ci ildə 1,3%, 2021-ci ildə 2,1%, 2023-cü ildə 3,3%, 2024-cü ildə isə 2,1% təşkil etmişdir. İçki istehsalı müəssisələrində anbar ehtiyatlarının hazır məhsul istehsalında xüsusi çəkisinə gəldikdə isə bu göstərici 2020-ci ildə 7,2%, 2021-ci ildə 0,2%, 2022-ci ildə 5,6%, 2023-cü ildə 4,3%, 2024-cü ildə isə 4,5% təşkil etmişdir.

Ümumiyyətlə götürdükdə anbar ehtiyatlarının həcmi nə qədər çox olarsa, bu o deməkdir ki, istehsal edilən məhsul rəqabətə davamlı deyildir. İstər qida sənayesində, istərsə də içki istehsalı sahəsində anbar ehtiyatlarının istehsal edilən ümumi məhsul dəyərində təxminən 5 % intervalında olması o deməkdir ki, istehsal olunan məhsul ən azı yerli bazar baxımından keyfiyyətli sayıla bilər və rəqabətə davamlılığı normal hesab olunur. Məsələn, təkcə bu göstəricini – yəni qida sənayesi sektorunda anbar ehtiyatlarının hazır məhsul istehsalında xüsusi çəkisini toxuculuq sənayesində anbar ehtiyatlarının hazır məhsula xüsusi çəkisi ilə müqayisə etsək görərik ki, 2024-cü ildə bu göstərici 26,7% təşkil etmişdir. Bu müqayisədən aydın olur ki, ölkəmizdə qida istehsalı müəssisələrində rəqabət qabiliyyəti göstəricisi toxuculuq sənayesinə nisbətdə nəzərəçarpacaq dərəcədə yüksəkdir.

Qida modernləşdirilməsi böyük həcmdə investisiyalar hesabına həyata keçirilir. Qida istehsalı müəssisələrinin investisiyalaşdırılmasında başlıca məqamlardan biri də mütərəqqi texnologiyaların cəlb edilməsidir. Bu texnologiyalar həm məhsulun maya dəyərinin aşağı salınmasına, həm də məhsulun keyfiyyətinin yüksəldilməsinə gətirib çıxarır. Qida istehsalının modernləşdirilməsi üçün əsas arqumentlərdən biri də fəaliyyət göstərən müəssisələrin ölçülərinə görə

qruplaşdırılmasıdır. Məlum olduğu kimi, ölkə hökumətinin qərarı ilə xüsusilə sənaye müəssisələri ölçülərinə görə mikro, kiçik, orta və iri təsərrüfat subyektləri olmaqla qruplaşdırılır. 2023–2024-cü illərdə ölkədə fəaliyyət göstərən qida sənayesi müəssisələrinin ölçülərinə görə qruplaşdırılması cədvəl 1-də öz əksini tapmışdır:

**Cədvəl 1.**

**Azərbaycan Respublikası üzrə qida sənayesi müəssisələrinin ölçülərinə görə qruplaşdırılması**

| Göstəricilər | 2023 | | | 2024 | | |
|---|---|---|---|---|---|---|
| | Mikro | Kiçik | Orta və iri | Mikro | Kiçik | Orta və iri |
| Bütün sənaye | 2754 | 1017 | 920 | 3296 | 1086 | 973 |
| Emal sənayesi | 2317 | 825 | 518 | 2780 | 914 | 565 |
| Qida məhsullarının istehsalı | 382 | 138 | 121 | 436 | 143 | 135 |
| İçki istehsalı | 98 | 51 | 33 | 128 | 48 | 33 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycanın sənayesi, Statistik Məcmuə, Bakı, 2025. 293 səh, s. 33*

Cədvəldən göründüyü kimi, ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrinin əhəmiyyətli hissəsini mikro və kiçik müəssisələr təşkil edir. Orta və iri müəssisələrin sayında isə o qədər də sürətli artım müşahidə edilməmişdir. Adı çəkilən təmayül o cümlədən emal sənayesinə, eləcə də qida sənayesinə də şamil edilməkdədir.

2023-cü illə müqayisədə 2024-cü ildə bütün sənaye sektorunda mikro müəssisələrin sayı 542 vahid artmışdırsa, orta və iri müəssisələrin sayı isə 53 vahid artmışdır. Kiçik müəssisələrin sayına gəldikdə isə ötən illə müqayisədə 69 ədəd artmışdır. Belə çıxır ki, sənaye sektorunda ən yüksək artım mikro müəssisələrə aiddir. Bu prosesin özünəməxsus xüsusiyyətləri mövcuddur. Zərərli adlandırsaq belə bu onu göstərir ki, mikro müəssisələr yoxsul və orta sinfin fəaliyyət göstərəcəyi müəssisələrdir, lakin daha bir təmayül isə ondan ibarətdir ki, mikro müəssisələrdə işçilərin sayı kifayət qədər məhdud xarakter daşıyır. Məsələn, qida məhsulları istehsalı sektorunda ötən illə müqayisədə kiçik müəssisələrin sayı 54 vahid artmışdırsa orta müəssisələrin sayı 5 ədəd, mikro müəssisələrin sayı 5 vahid, orta və iri müəssisələrin sayı isə 14 vahid artmışdır. Bu sahədə də mikro

müəssisələrinin sayının daha sürətli artımı müşahidə edilir. İçki istehsalına gəlincə isə içki istehsalında da oxşar təmayül müşahidə edilir. Məsələn ötən illə müqayisədə içki istehsalında fəaliyyət göstərən müəssisələrin sayı 30 vahid artmışdırsa, mikro müəssisələrin sayı 3 vahid azalmış, orta və iri müəssisələrin sayı isə dəyişməmişdir. Ümumiyyətlə, prosesə modernləşmə aspektindən yanaşsaq qeyd etmək lazımdır ki, iri müəssisələr daha çox ərzaq bazarını qida məhsulları ilə təmin etmək və ixracda yüksək xüsusi çəkiyə malik olmaq iqtidarındadır. Kiçik və mikro müəssisələr isə daha çox daxili bazara və ailə ehtiyaclarını bu və ya digər şəkildə qarşılamaq, lokal ərazilərdə fəaliyyət göstərmək, yəni regional ehtiyacları ödəmək iqtidarındadırlar.

Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi qida istehsalına yatırılan investisiyalar qida istehsalının stimullaşdırılmasında da mühüm rol oynamaqla yanaşı, eyni zamanda qida sənayesində əlavə dəyərin formalaşdırılmasına da gətirib çıxarır. Bu baxımdan 2020-2024-cü illərdə qida sənayesinə yatırılan investisiyalar barədə məlumat cədvəl 2-də öz əksini tapmışdır.

Cədvəl 2-dən göründüyü kimi Azərbaycanın sənaye sektoruna yatırılan investisiyaların həcmi 2020-ci illə müqayisədə 2024-cü ildə 14% azalaraq 7863,5 milyon manat təşkil etmişdir. İqtisadiyyatın sənaye sektoruna yatırılan investisiyaların həcmi isə 26% azalaraq, 2846,0 milyon manat, daxili investisiyalar isə 3,9% azalaraq 5017,8 milyon manat təşkil etmişdir. Sənaye sektorunun hal-hazırda mühüm tərkib hissəsini təşkil edən mədənçıxarma sənayesinə yatırılan investisiyaların həcmi müqayisə olunan dövrdə 12,6% azalaraq 4911,7 milyon manat, xüsusilə xarici investisiyaların həcmi 23,1% azalaraq 2833,9 milyon manat təşkil etmişdir. Mədənçıxarma sənayesinə yatırılan daxili investisiyalarda isə artım müşahidə edilmişdir (7,7%). Məlum olduğu kimi, mədənçıxarma sənayesinin ən mühüm investisiya yönəldilən sahəsi xamneft və təbii-qaz hasilatı sektoru hesab edilir. Adıçəkilən sektora yatırılan məcmu investisiyaların həcmi müqayisə olunan dövrdə 15,3% azalaraq, 4678,4 milyon manat, o cümlədən xarici investisiyaların həcmi isə 23,5% azalaraq 2820,4 milyon manata çatmışdır. Müqayisə olunan dövrdə neft və təbii-qaz sektoruna yatırılan daxili investisiyaların həcmi artmışdır (12%).

**Cədvəl 2.**

**Sənaye sahələrində əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manatla**

| Göstəricilər | **2020** | **2021** | **2022** | **2023** | **2024** | **2020-ci illə müqayisədə 2024-cü ildə, %-ilə** |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 9065,3 | 7507,3 | 7172,1 | 8405,7 | 7863,5 | 86 |
| Xarici investisiyalar | 3845,6 | 3169,1 | 2891,3 | 3275,9 | 2846,0 | 74 |
| Daxili investisiyalar | 5219,7 | 4338,2 | 4280,8 | 5129,8 | 5017,5 | 96 |
| Mədənçıxarma sənayesi | 5613,8 | 4817,1 | 4983,8 | 6135,5 | 4911,7 | 87 |
| Xarici investisiyalar | 3784,6 | 3085,0 | 2833,6 | 3275,9 | 2833,9 | 74 |
| Daxili investisiyalar | 1929,2 | 1732,1 | 2150,2 | 2859,6 | 2077,8 | 107 |
| Xam neft və təbii qaz hasilatı | 5522,1 | 4727,4 | 4518,2 | 5635,9 | 4878,4 | 88 |
| Xarici investisiyalar | 3684,6 | 3081,5 | 2827,3 | 3261,1 | 2820,4 | 76 |
| Daxili investisiyalar | 1837,5 | 1645,9 | 1690,9 | 2374,8 | 2058,0 | 112 |
| Emal sənayesi | 2610,5 | 2018,0 | 1202,2 | 9116,8 | 1409,4 | 53 |
| Xarici investisiyalar | 19,9 | 13,0 | 52,9 | - | 2,1 | 10 |
| Daxili investisiyalar | 2590,6 | 2005,0 | 1149,3 | 9116,8 | 1427,3 | 55 |
| Qida məhsullarının istehsalı | 225,1 | 197,8 | 206,5 | 132,2 | 118,4 | 52 |
| Xarici investisiyalar | 18,8 | - | - | - | - | - |
| Daxili investisiyalar | 206,3 | 197,8 | 206,5 | 132,2 | 118,4 | 57 |
| İçki istehsalı | 39,4 | 39,1 | 45,4 | 16,7 | 49,4 | 125 |
| Xarici investisiyalar | - | - | 3,7 | - | - | - |
| Daxili investisiyalar | 39,4 | 39,1 | 41,7 | 16,7 | 49,4 | 125 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycanın sənayesi, Statistik məcmuə, Bakı, 2025, 293 səh, s. 114, əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Qeyd etmək lazımdır ki, xüsusilə Covid-19 pandemiyasından sonra qlobal bazarda kənd təsərrüfatı texnologiyaları və innovasiyaları bazarının həcmində artımı müşahidə edilmişdir. 2019-2024-cü illərdə qlobal məkanda kənd təsərrüfatı texnologiyaları və innovasiyaları bazarının dinamikası cədvəl 3-də öz əksini tapmışdır.

**Cədvəl 3.**

**Azərbaycan Respublikasında 2019-2024-cü illərdə qlobal kənd təsərrüfatında texnologiyalar və innovasiyaların bazarının dinamikası**

| **İl** | **Qlobal bazar (mlrd $)** | **ABŞ** | **Çin** | **Hindistan** | **Avropa (ümumi)** | **Latın Amerikası** |
|---|---|---|---|---|---|---|
| 2019 | 33.5 | 15.2 | 6.3 | 2.1 | 7.8 | 2.1 |
| 2020 | 38.2 | 17.6 | 7.1 | 2.8 | 8.3 | 2.4 |
| 2021 | 42.7 | 19.3 | 7.9 | 3.2 | 9.0 | 3.3 |
| 2022 | 45.1 | 20.5 | 8.6 | 3.9 | 9.5 | 2.6 |
| 2023 | 47.3 | 21.2 | 9.1 | 4.3 | 10.2 | 2.5 |
| 2024 | 49.6 | 22.4 | 9.8 | 4.9 | 10.8 | 2.8 |
| 2019-cu illə müqayisədə 2024-cü ildə, dəfə | 1,5 | 1,5 | 1,5 | 2,3 | 1,4 | 1,3 |

*Mənbələr: AgFunder Global AgriFoodTech Market Report (2024), FAO Agricultural Innovation Outlook (2024), OECD AgriTech Review (2023), World Bank AgriTech Indicators (2024).*

Cədvəl 3-dən göründüyü kimi, 2024-cü ildə qlobal kənd təsərrüfatı texnologiyaları və innovasiyalar bazarının həcmi 49,6 milyard ABŞ dolları olmuşdur ki, bu da 2019-cu illə müqayisədə 1,5 dəfə artmışdır. ABŞ-da 1,5 dəfə artaraq 22,4 mlrd. dollara, Çində 1,5 dəfə artaraq 9,8 mlrd. dollara, Hindistanda 2,3 dəfə artaraq 4,9 mlrd. dollara, Avropada 1,4 dəfə artaraq 10,8 mlrd. dollara, Latın Amerikasında 1,3 dəfə artaraq 2,8 mlrd. dollara çatmışdır. Aparılan tədqiqatlar göstərir ki, qlobal kənd təsərrüfatı texnologiyaları və innovasiyalar bazarına özünəməxsus təsirlər mövcud olmuşdur. Bu təsirlər ilk növbədə onunla bağlı olmuşdur ki, 2019-cu ildə dünyada baş verən COVID-19 tendensiyası smart və avtomatlaşdırma sisteminə sürətli keçidi şərtləndirmişdir. Bu proseslər sonradan, yəni 2020-ci ildən etibarən adı çəkilən sahələrdə əməliyyat yükündən texnologiyaya transferi şərtləndirmişdir.

Dissertasiya işinin III fəsli **"Azərbaycanda qıda istehsalının modernləşməsinin prioritetləri"** adlanır. Bu fəsildə qida istehsalının modernləşməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri, qida məhsulları istehsalında innovasiyaların tətbiqinin stimullaşdırılması

istiqamətləri, qida istehsalının modernləşdirilməsində yaşıl texnologiyaların stimullaşdırılmasının rolu müəyyənləşdirilir. Bu fəsildə qeyd edilir ki, qida istehsalının modernləşdirilməsində dövlət tərəfindən həyata keçirilən tədbirlər aşağıdakı bir-birilə qarşılıqlı əlaqəyə malik olan növmüxtəlifliyini özündə əks etdirir:

– sənaye istehsalının strukturunun təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlər. Bu zaman ölkənin iqlim şəraiti və ixtisaslaşma istiqamətindən asılı olaraq ayrı-ayrı sahələr ön plana çəkilə bilir. Bu baxımdan, qida məhsulları istehsal edən sahələrin də fərqli yarımsahələrin inkişafı nəzərdə tutula bilər;

– xüsusilə, inkişafdan geri qalmış qida sənayesi müəssisələrinin texnoloji cəhətdən yeniləşdirilməsinə nail olunmasına istiqamətlənmiş tədbirlər;

– bazarda yerli qida istehsalının təmin etmək istiqamətində fəaliyyət göstərən və daxili bazara fokuslanmış emal sənayesi müəssisələrinin maliyyə sağlamlaşdırılmasına istiqamətlənmiş tədbirlər və maliyyə təminatı;

– modernləşdirilmiş qida sənayesi müəssisələrində müasir texnologiyalarla işləməyi bacaran mütəxəssislərin xaricdə təhsilinə yardım göstərilməsi[4].

Qeyd etmək lazımdır ki, ölkəmizdə də istehsalçılara müvafiq dövlət dəstəyi tədbirləri həyata keçirilir. Lakin respublikamızda həyata keçirilən dövlət dəstəyi tədbirlərində kənd təsərrüfatı əmtəə istehsalçıları daha çox ön plana çəkilir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi prosesinə 2011-ci ildən başlanmış və həmin dövr üçün bu dövrdən sonrakı zaman kəsiyində də öz müsbət nəticələrini vermişdir.

Qida istehsalının modernləşdirilməsinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi ilk növbədə dəyər zəncirində xammal istehsalından hazır məhsula qədər bütün mərhələlərdə istehsal şəbəkəsinin optimallaşdırılmasını, bu sahəyə innovasiyaların və investisiyaların stimullaşdırılmasına istiqamətlənmiş tədbirlərin məcmusunu özündə əks etdirir. Qida istehsalının modernləşdirilməsinin təkmilləşdirilməsi

[4] Абдикеев, Н.М., Богачев, Ю.С., Морева, Е.Л. Направления совер вания государственного регулирования промышленного развития. // Анализ. Аудит. 2018. Т. 5, № 4. – стр. 14-29.

istiqamətində həyata keçirilən tədbirlər sistemində aşağıdakı prioritetlər xüsusilə ön plana çəkilir:

– Qida istehsalı ilə məşğul olan müəssisələrə maliyyə dəstəyinin verilməsi;

– Qida istehsalı üzrə fəaliyyət göstərən əmtəə istehsalçılarının təsərrüfat subyektlərinə vergi stimullarının tətbiqi;

– Qida istehsalı ilə bağlı fəaliyyət göstərən müəssisələrdə infrastrukturun inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi;

– Qida istehsalçılarına dövlət dəstəyinin göstərilməsi( adı çəkilən tədbirlər subsidiyalar formasında, eləcə də məqsədli dövlət proqramları və planlaşdırma çərçivəsində gerçəkləşdirilə bilir.)

Qida istehsalının modernləşdirilməsinin, iqtisadi mexanizminin təkmilləşdirilməsini zəruri şərtləndirən xarici amillər isə ilk növbədə ölkəyə idxal edilən məhsulların həcmi ilə bağlıdır. Ölkəyə idxal edilən qida məhsullarının həcminin ümumi idxalda yüksək xüsusi çəkisi təşkil etməsi, daha doğrusu ilbəil artım nəticədə ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinə təhdidlər doğurur. Bundan əlavə ərzaq inflyasiyaları da problemin yaranmasını şərtləndirir. Bu zaman istehlakçının gəlirlərində qida məhsullarına çəkilən xərclərin həcminin artması müşahidə edilir. Qida istehsalının modernləşdirilməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsinin zəruriliyini şərtləndirən amillərin - iqtisadi göstəricilərin 2019–2024-cü illərdəki mövcud vəziyyəti cədvəl 4-də öz əksini tapmışdır.

Cədvəldən göründüyü kimi, 2019–2024 illərdə qida sənayesinin ÜDM-də payında artım müşahidə edilmişdir. Belə ki, əgər 2019-cu ildə qida sənayesinin ÜDM-də payı 5,1% təşkil etmişdisə, 2024-cü ildə bu göstərici 10,4%-ə bərabər olmuşdur. Müqayisə olunan dövrdə ərzaq məhsullarının ixracı 28%, ərzaq məhsullarının idxalı isə 26% artmışdır. Müqayisə olunan dövrdə qida istehsalının həcmi 39% artmışdır ki, bu da qida istehsalının ÜDM-də xüsusi çəkisinin bu və ya digər şəkildə yüksəldilməsini şərtləndirmişdir.2019-2024 illərdə ərzaq inflyasiyalarının baş verməsi, xüsusilə inflyasiyasının ümumi inflyasiya fonunda daha yüksək olması, əhalinin ərzaq məhsullarına əlçatanlığında problemlərin yaranmasına gətirib çıxarmışdır. Əslində, ərzaq inflyasiyası ərzaq məhsullarının qiymətlərinin artımı ilə

bağlıdır. 2019-cu ildə ölkədə ərzaq inflyasiyasının səviyyəsi 4,3 %-ə olmuşdursa, bu sahədə ən yüksək göstərici 2022-ci ildə qeydə alınmışdır ki, bu da 12,4 faizə bərabər olmuşdur. 2024-cü ildə ölkə üzrə ümumi ərzaq inflyasiyası 9,2 % təşkil etmişdir.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında 2019–2024 illərdə qida sənayesinin modernləşdirilməsinin, iqtisadi mexanizminin təkmilləşdirilməsinin zəruriliyini şərtləndirən göstəricilərin dinamikası**

| İl | Qida sənayesinin ÜDM-də payı (%) | İstehsal həcmi (mln manat) | Ərzaq ixracı(mln ABŞ) | Ərzaq idxalı (mln ABŞ) | Ərzaq inflyasiyası(%) | Qida emalı səviyyəsi | Ərzaq ixracının ÜDM-də payı (%) | Ərzaq idxalının ÜDM-də payı (%) | Ərzaq və qida məhsullarının ümumi ixracda payı (%) | Ərzaq və qida məhsullarının ümumi idxaldapayı (%) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2019** | 5.1 | 3 480 | 795 | 1 120 | 4.3 | 45 | 0.9 | 1.3 | 8.5 | 11.4 |
| **2020** | 5.3 | 3 550 | 760 | 1 180 | 10.4 | 46 | 0.8 | 1.4 | 8.2 | 11.7 |
| **2021** | 5.6 | 3 880 | 850 | 1 250 | 8.6 | 48 | 0.9 | 1.5 | 8.3 | 11.9 |
| **2022** | 6.0 | 4 210 | 910 | 1 310 | 13.9 | 49 | 1.0 | 1.6 | 8.7 | 12.2 |
| **2023** | 6.2 | 4 560 | 970 | 1 380 | 12.4 | 51 | 1.1 | 1.6 | 8.9 | 12.4 |
| **2024** | 6.4 | 4 850 | 1 020 | 1 420 | 9.2 | 53 | 1.1 | 1.5 | 8.8 | 12.3 |

*Mənbə: DSK 2019 FAO, DSK 2020 İqtisadiyyat Nazirliyi, DSK 2021 AKIA, DSK 2022 FAO; Dünya Bankı DSK 2023 İqtisadiyyat Nazirliyi, DSK 2024 (proqnoz) FAO 2024*

2019-cu ildə ixrac edilən ərzaq məhsullarının ÜDM-də payı 1,1 %-ə olmuşdursa, 2024-cü ildə bu göstərici 1,5 %-ə bərabər olmuşdur. 2024-cü ildə ərzaq məhsullarının ixracının ümumi ixracda payı 8,8 %-ə, ərzaq məhsullarının idxalının ümumi idxalda payı isə 12,3 %-ə bərabər olmuşdur. Bütün bunlar isə onu göstərir ki, ərzaq məhsullarının idxal həcminin artması və bu artımın ümumi ixracda daha böyük paya sahib olması nəticə etibarilə istehsal sektorunun idxaldan asılılığını yaradır.

İnvestisiya proseslərinin tənzimlənməsinə də ehtiyac vardır. Qida istehsalının tənzimlənməsinin iqtisadi mexanizmində investisiyaların

rolunun artırılması və eləcə də investisiya mexanizminin təkmilləşdirilməsi üçün, fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsi daha məqsədəuyğun olardı:

– Qida istehsalının modernləşdirilməsinə xarici investisiyaların cəlb edilməsi ilə bağlı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

– Qida istehsalının modernləşdirilməsində xarici investisiyaların cəlb edilməsi ilə bağlı xüsusilə həmin qoyulacaq yeni texnologiyaların vergilərdən azadolunması və gömrük rüsumlarından azadolunması;

– Qida istehsalının modernləşdirilməsində investisiyaların rolunun artırılması üçün işğaldan azad edilmiş ərazilərdə azad iqtisadi zonaların yaradılması prosesinin dəstəklənməsi;

– Qida istehsalının modernləşdirilməsində innovativ texnologiyaların tətbiqini həyata keçirən xarici investorlara müəyyən müddətdə güzəştlərin tətbiq edilməsi(Bu zaman Türkiyədə turizmin inkişafı ilə bağlı, xüsusilə Antalya və Alanya bölgələrində turizmin inkişafının dəstəklənməsi istiqamətində tədbirlərin gerçəkləşdirilməsinə xüsusi önəm verilməlidir).

Qida istehsalının innovasiyalaşdırılması bütövlükdə milli iqtisadiyyata innovasiyaların cəlb edilməsinin mühüm tərkib hissəsini təşkil etsə də, qida sənayesinin özünəməxsus spesifik xüsusiyyətləri baxımından qida istehsalının innovasiyalaşdırılmasının da spesifik xüsusiyyətləri də nəzərə alınmalıdır. Bu baxımdan iqtisadçılar hesab edirlər ki, qida istehsalının innovasiyalaşdırılmasının 4 əsas növ müxtəlifliyini fərqləndirmək mümkündür. Bunlara da aşağıdakıları aid etmək olar:

- məhsul innovasiyalarının tətbiq edilməsi;
- qida sənayesi müəssisələrində texnoloji innovasiyaların tətbiq edilməsi;
- qida sənayesi müəssisələrində marketinq tədqiqatlarının aparılmasını və marketinq fəaliyyətinin yeniləşdirilməsini nəzərdə tutan marketinq innovasiyaları;
- qida sənayesi müəssisələrində təşkilati institutsional innovasiyaların tətbiq edilməsi[5]

---

[5] Жекова, О.А. Особенности инновационного процесса в отраслях пищевых производств // Пищевая промышленность, – 2005. - № 12., – стр. 26-27

Qida istehsalının və bütövlükdə qida sənayesinin milli iqtisadiyyatın dominant sahələrindən olduğunu nəzərə alsaq, qida istehsalının innovativ baxımdan prioriet sahələrinə aşağıdakıları şamil etmək olar:

– Pəhriz qidalarının istehsalı (taxıl sortlarından müalicəvi qida məhsullarının istehsalı, müasir dövrdə yeni təmayüllərə adekvat reaksiyaların göstərilməsi və sağlam həyat tərzi üçün düzgün qidalanmaya riayət edilməsi);

– Təbii məhsulların (göbələk, meyvə, dərman bitkilərinin toplanması və emalının innovasiyalaşdırılması), həmin məhsulların tədarük mərkəzlərinin formalaşdırılması və s.;

– Meyvə və giləmeyve konservlərinin istehsalı (mürəbbələr, konservlər, kompotlar, marinadlar və s.) sahəsində innovativ proseslərin bilavasitə məhsulun keyfiyyətinin yüksəldilməsinə və hazır məhsulun maya dəyərinin aşağı salınmasına yönəldilməsi;

– Dondurulmuş məhsul növlərinin istehsalı. Məlum olduğu kimi, xüsusilə tərəvəz məhsulları mövsümi situasiyalarda yüksək qiymətə satıla bilmir və bir sıra hallarda son zamanlar yay aylarında alıcı tapılmaması baxımından məhv olur. Bütün bunlar isə məhsulların dondurulması, konservləşdirilməsi və sonradan bazara çıxarılması ilə bağlı sahələri daha çox prioritetə çevirir. Məhz bütün bunların nəticəsində yerli dondurulmuş məhsulların daxili bazara çıxarılması, xaricdən gətirilən tərəvəz qarışıqlarının məhdudlaşdırılmasına səbəb ola bilər;

– Kənd təsərrüfatının şaxələndirilməsi prosesində innovativ vasitələrdən istifadə edilməsi. Bu xüsusilə duru yağlara olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynaya bilər. Nəzərə almaq lazımdır ki, Respublikamız duru yağların əksəriyyətini demək olar ki, idxal edir. Bu baxımdan yağlı toxum istehsalı baxımından xammal bazasının genişləndirilməsi və həmin xammalın mütərəqqi texnologiyalar vasitəsilə emal edilməsi mühüm əhəmiyyət kəsb edə bilər;

– Balıqçılıq sahəsində innovativ vasitələrdən istifadə edilməsi. Nəzərə almaq lazımdır ki, SSRİ-nin dağılması nəticəsində təsərrüfatların dağılması nəticəsində Respublikamızda fəaliyyət göstərən bir sıra balıqçılıq müəssisələri istər paytaxt Bakı şəhərində, istərsə də Neftçala rayonundakı balıq istehsalı müəssisələri demək olar

ki, dağılmışdır. Həmin sahələrin bərpa edilməsi və həmin müəssisələrdə mütərəqqi texnologiyaların tətbiq edilməsi, nəticədə balıqçılıq təsərrüfatlarının inkişafına müsbət təsir göstərə bilər ki, bu da həm respublikamızda balıq məhsulları istehsalının artırılmasına və onların daxili və xarici bazarlara yönəldilməsinə əlverişli şərait yaradar. Fikrimizcə, bu sahəyə xarici investorların cəlb edilməsi də müsbət nəticələrin əldə edilməsində əhəmiyyətli vasitə ola bilər.

## NƏTİCƏ

**Qida istehsalının modernləşdirilməsinin prioritet istiqamətləri"** mövzusunda dissertasiya işini yerinə yetirərək aşağıdakı nəticələrə gəlmək olar:

**1.** Qlobal mühitdə rəqabətqabiliyyətli iqtisadın formalaşdırılması ilk növbədə modernləşdirilmiş müəssisələrin sayının artırılmasından, eləcə də iqtisadiyyatın sahə və ərazi kəsimlərinin davamlı olaraq modernləşdirilməsindən və texnoloji cəhətdən yenidən qurulmasından bilavasitə asılıdır. Qlobal rəqabət mühitində sosial-iqtisadi qeyri-bərabərliyin dərinləşməsi artıq qloballaşmanın gətirdiyi ən mühüm problemlərdən biri hesab olunur. Bu problemlərin səmərəli şəkildə aradan qaldırılması, milli iqtisadıyyatın strukturunun davamlı olaraq təkmilləşdirilməsini və bu sahədə struktur islahatlarının həyata keçirilməsini obyektiv zərurətə çevirir. Artıq getdikcə belə bir təmayül obyektiv reallığa çevrilməkdədir ki, modern iqtisadiyyat dövlətin iqtisadi təhlükəsizliyinin fundamental prinsiplərindən birini təşkil edir.

**2.** Modernləşdirilmə, xüsusilə onun iqtisadi və texnoloji elementləri məqsəd deyil, məqsədə çatmaq üçün istifadə olunan ən mühüm vasitələrdən biri hesab edilir. Bu baxımdan iqtisadiyyatın sahə və ərazi kəsimlərinin modernləşdirilməsi iqtisadiyyatın şaxələndirilməsində önəmli yerə və rola malikdir. İqtisadiyyatın şaxələndirilməsi o zaman özünün müsbət nəticələrini verə bilər ki, iqtisadiyyat ənənəvi texnologiyalardan imtina edilməsi fonunda, daha yüksək məhsuldarlığa malik olan sosial-iqtisadi prosesləri əhatə etsin.

**3**. Qloballaşma prosesinin dərinləşməsi modernləşmənin ənənəvi formalarından əlavə, yeni formalar və funksiyalar da əldə etməsini səciyyələndirmişdir. Bu baxımdan iqtisadiyyatın sürətli inkişafının

təmin edilməsi, yoxsulluğun səviyyəsinin azaldılması, ekoloji tələblərin təmin edilməsi də qloballaşma ilə də bilavasitə bağlıdır. Bu baxımdan Respublikamızda da ənənəvi bərpa olunmayan enerji resurslarından bərpa olunan enerji resurslarına, o cümlədən yaşıl enerji resurslarına keçidin iqtisadiyyatın modernləşdirilməsində mühüm əhəmiyyətə malik olduğu gözlənilәndir.

**4.** İqtisadiyyatın modernləşdirilməsinin səmərəliliyinin yüksəldilməsi ilk növbədə onun sosial-iqtisadi, institutsional funksiyalarının kompleks şəkildə yerinə yetirilməsinə nail olunmasından bilavasitə asılıdır. Modernləşmənin iqtisadi funksiyaları ilk növbədə xərclərə qənaət edilməsi, resursların səmərəli yerləşdirilməsi, əmək məhsuldarlığının artırılması ilə sıx bağlı olduğundan, bu funksiyalar iqtisadiyyatın sahə və ərazi kəsimlərində bazar konyunkturundan asılılığın aradan qaldırılmasında önəmli rol oynayır, istehsal olunan məhsulun rəqabətədavamlılığının yüksəldilməsinə də əlverişli şərait yaradır.

**5.** Müasir şəraitdə qida istehsalı qlobal məkanda TMK-ların nəzarətində olan və bilavasitə dünya bazarında önəmli rol oynayan segmentlərdən biridir. Nəzərə almaq lazımdır ki, qida istehsalı əhalinin gündəlik tələbatlarının ödənilməsində də mühüm rol oynamaqla ərzaq bazarının əsas təklif seqmentini təşkil edir. Qida istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi, onun rəqabətədavamlılığının artırılması qida istehsalında keçmiş ənənəvi texnologiyalardan müasir texnologiyalara transferi özündə əks etdirir. Bu baxımdan qida istehsalının modernləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi inkişaf etməkdə olan ölkələrdə, o cümlədən neft istehsalı və ixracı üzrə ixtisaslaşmış ölkələrdə xüsusilə mühüm strateji əhəmiyyət kəsb edir.

**6**. Qida istehsalının sürətləndirilməsi, qida istehsalının modernləşdirilməsindən bilavasitə olub, əhalinin qida məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın rolunun artırılmasına imkan verə bilir. Bu baxımdan qeyd etmək lazımdır ki, respublikamızda fəaliyyət göstərən qida müəssisələrinin əksəriyyəti kiçik və orta müəssisələrdir. Bu isə lokal bazarlara istiqamətlənməklə qida məhsullarına olan tələbatın ödənilməsində müəyyən rol oynayır. Təsadüfi deyildir ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi

baxımından qida məhsullarına olan tələbatın ödənilməsində idxal kanallarından asılılıq hələ də qalmaqdadır. Bu prosesin yaranmasının başlıca səbəbi isə qida məhsullarını istehsal edən müəssisələrin yetərincə modernləşməməsi və regionlarda sayının yüksək olmaması ilə bağlıdır.

**7**. Qida istehsalının modernləşdirilməsi sahəsində ən mühüm istiqamətlərdən biri ilk növbədə iri əmtəəlik təsərrüfatlarının yaradılmasıdır. Belə şəraitdə yerli qida istehsalçıları həm daxili bazarın tələbatını ödəmək iqtidarında olur və həm də xarici bazarlara məhsulların çıxarılmasını təmin edə bilirlər.

**8**. Qida istehsalının modernləşdirilməsinin ən mühüm problemlərindən biri qida istehsalı ilə bağlı fəaliyyət göstərən müəssisələrin inteqrasiya səviyyəsinin və lokallıq səviyyəsinin aşağı olmasıdır. Belə ki, araşdırmalar göstərir ki, qida istehsalı ilə məşğul olan müəssisələrin təxminən 40%-i yerli əmtəə istehsalçıları ilə bilavasitə müqavilələr bağlayır. Bu prosesin yaranmasının bir sıra səbəbləri də vardır. Bu səbəblərə ilk növbədə onu aid etmək olar ki, ölkəmizdə fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçılarının əksəriyyəti xırda əmtəə təsərrüfatlarıdır. Xırda əmtəə təsərrüfatları isə daha çox ailə tələbatının ödənilməsinə və lokal ehtiyacların qarşılanmasına xidmət edir.

**9.** Qida istehsalının modernləşdirilməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsi ilk növbədə qida istehsalçılarına güzəştli şərtlərlə kredit verilməsinin artırılmasını, onlara vergi güzəştlərinin tətbiq edilməsini nəzərdə tutur. Qida istehsalının modernləşdirilməsi məhz iqtisadi resurslara əlçatanlığın təmin edilməsi ilə sıx bağlıdır. Bu baxımdan hesab etmək olar ki, qida istehsalı ilə məşğul olan müəssisələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, dövlət–özəl bölmə əməkdaşlığının təmin edilməsi mühüm strateji əhəmiyyətə malikdir.

**10.** Qida istehsalının modernləşdirilməsində ən mühüm prioritet istiqamətlərdən biri də vergiqoyma mexanizminin təkmilləşdirilməsidir. Başqa sözlə desək, müəyyən zaman kəsiyində qida istehsalının modernləşdirilməsinə vəsait yönəltmiş təsərrüfat subyektlərini vergidən azad etmək, onlara vergi tətillərinin verilməsi modernləşdirməyə sərf edilmiş investisiyaların geri qayıtması baxımından da mühüm əhəmiyyət kəsb edə bilər.

**11.** Qida istehsalının modernləşdirilməsində investisiya layihələri mühüm əhəmiyyətə malikdir. Təhlil göstərir ki, son 5 il ərzində xarici investisiyaların qida istehsalı üzrə fəaliyyət göstərən müəssisələrə yönəldilməsi prosesi məhdud xarakter daşıyır. Bu isə qida istehsalının müasir texnologiyalarla təchizatında problemlərin yaranmasına səbəb olur. Məhz bütün bunlar isə rəqabət qabiliyyətli qida məhsullarının istehsalını həyata keçirmək imkanlarını məhdudlaşdırır.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Qida məhsullarının istehsalının stimullaşdırılmasının bəzi məsələləri // – Bakı: "İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri" mövzusunda respublika elmi konfrans, 23-24 noyabr 2023. – s. 196-199.
2. Qida məhsulları istehsalının ekoloji, iqtisadi problemləri // – Bakı: "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda respublika elmi-praktiki konfrans, 15 may 2024. – s. 100-103.
3. Qida məhsullarının istehsalında yaşıl texnologiyaların tətbiqinin stimullaşdırılması // – Bakı: "Kənd təsərrüfatının iqtisadiyyatı" elmi-praktiki jurnalı, 2024, № 2 (46). – s. 19-26.
4. Qida məhsullarının istehsalı prosesində qlobal çağırışların rolu // – Bakı: "İqtisadi artım və ictimai rifah"elmi jurnalı, 2024, № 2. – s. 101-108.
5. The Role of Global Trends in Stimulating Food Production // – Galati: Acta Universitatis Danubius. Economica Journal, 2024, № 3 (20). – pp. 7-14.
6. Qida məhsulları istehsalçılarının stimullaşdırılmasının iqtisadi problemləri // – Bakı: "Geostrategiya" beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, 2024, № 4 (82). – s. 151-155.
7. Qloballaşma şəraitində qida sənayesinin modernləşdirilməsinin ərzaq təhlükəsizliyi baxımından qiymətləndirilməsi // – Bakı: "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, 2025, № 02. – s. 228-235.

8. Qida məhsulları istehsalının modernləşdirilməsi və iqtisadi şaxələndirmə məsələləri // – Bakı: “Kooperasiya” elmi-praktiki jrunal, 2025, № 3 (78). – s. 122-129.

9. Мировой опыт модернизации производства продуктов питания // – Москва: “Экономика и предпринимательство”, 2025, № 4 (177). – стр. 302-303.

10. Müasir şəraitdə qida sənayesinin davamlı inkişafının təmin edilməsinin prioritet istiqamətləri // – Bakı: “Yeni nəsil iqtisadiyyat: çağırışlar və perspektivlər” beynəlxalq elmi-praktiki konfrans, 04 oktyabr 2024. – s. 501-507.

11. Роль логистических инноваций в стимулировании производителей продуктов питания // – “Эффективность сферы товарного обращения и труда” сборник научных статей X писаренковских чтений, посвященных 60-летию основания университета, 31.10-01.11.2024. – стр. 110-114

12. Qida sənayesinin modernləşdirilməsində xarici investisiyaların rolu // – Bakı: “Statistika xəbərləri” elmi-praktik jurnalı, – 2026, № 1. – s. 44-50.



Dissertasiyanın müdafiəsi 14 oktyabr 2026-cı il tarixdə, saat $16^{00}$da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov rayonu, Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 sentyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.09.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46638 işarə

Tiraj: 100